# Real Və Virtual Aləmdə Çıxış Etmək

**Müəllif**: Dr. Tofiq Əsədov[1]

## Giriş

Mənəvi həyatı insanlara aşılayan bir mütəfəkkirdə olması vacib olan ən önəmli xüsusiyyətlərdən biri də, mütaliə, məntiq və araşdırma ilə real və virtual aləmi dəqiq tanıyıb, öz müqəddəs amallarını düzgün metodlarla xalqa çatdırmaqdır.

Hətta bir müsəlmanın yalnız yüksək inanc sahibi olması və əqidəsinə sadiq qalması kifayət etmir, əqidəsini düzgün və məntiqli şəkildə mənimsəməsi, fikirlərində fəlsəfi argumentlərə əsaslanması, təfəkkür sahibi olması, uzaqgörənliyi və bütün bu dəyərləri gerçək aləmdə olduğu kimi, virtual həyatda da insanlara ən gözəl üslublarla çatdırması azru olunan istəklərdəndir.

## İntellektuallıq

Mənəvi hisslər, insanın fitri hissidir. İnsan öz fitrətinə qarşı çıxa bilməz, hansı ki dini inanc bu fitrətin cövhəri və içi sayılır. Deməli, iman deyilən bir şey insanın fitrətində və daxilində olan, ağılla hərəkət etməli olan bir duyğudur.

Bu duyğu düzgün yönləndirildiyi zaman, insana inam, yaşamaq hissi, səbirli olmaq, insanlığa ehtiram bəsləmək, ilahi və bəşəri hüquqları riayət etmək, xeyirxahlıq, fədakarlıq, əfv etmək, güzəştə getmək, laqeyd qalmamaq, şəfqətli və sədaqətli olmaq, həmrəylik, mübarizə və sair kimi dəyərli xislətlər bəxş edir.

Həqiqi iman, insanı aqressivlik, təcavüzkarlıq, dünyapərəstlik, xəsislik, riyakarlıq, paxıllıq və sair kimi çirkin xasiyyətlərdən qoruyur. İmanlı insan yalnız Allaha bel bağlamaqla müxtəlif ağır çətinliklərin öhdəsindən asanlıqla gəlir. Həqiqi iman insanı radikallığa, cinayətə və terrora yönəltmir. Həqiqi iman, insanı paklığa, təmizliyə, izzət və şərəf dolu həyata yönləndirir.

Buna görə də, dinin rolunu qeyd etdiyimiz zaman, onun haradan və hansı şəkildə mənimsənildiyinə diqqət etmək lazımdır. Unutmayaq ki, elm və biliyin nəticəsində yaranan iman, xurafata aparmır. Hansı iman ki, elmsiz və bilikiz yaranıb, o iman mütləq xurafata və fanatizmə aparıb çıxarır.

Elmsiz iman, insanda aqressivlik və əsəbilik də yaradır, insanın həyatında problemlər və başqalarına qarşı kobudluq, eləcə öz psixologiyasında iztirablar əmələ gətirir. Təsəvvür edək ki, dini mətnləri öyrənərək, yalnız etiqadı və inamı yüksək səviyyədə olan ilahiyyatçı, elm, ağıl-məntiq, düşüncə və uzaqgörənlikdən məhrum olduğu zaman təhlükəli nəticələr əldə ediləcəkdir.

---

1. Əl-Mustafa Beynəlxalq Virtual Universitetinin böyük elmi işçisi, tofiq.asadov@inbox.ru

Buna görə də, dinimizdə daim elm, təfəkkür və ağıla misilsiz dəyər verilərək, onların zərurətinə təkid edilir. Qurani-kərimdə buyurulur:

قُلْ هَلْ يَسْتَوِي الَّذينَ يَعْلَمُونَ وَالَّذينَ لا يَعْلَمُونَ إِنَّما يَتَذَكَّرُ أُولُواالْأَلْبابِ

"(Ey Məhəmməd!) De: "Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?! (Allahın ayələrindən, dəlillərindən) yalnız ağıl sahbləri ibrət alar!"[1]

Ağıl, Allah-təalanın bəşər övladına əta etdiyi ən gözəl nemətdir. Ağıl insana doğru yolu göstərən və yaxşını pisdən ayırd etməsinə yardım edən olduqca dəyərli vasitədir. Təsadüfi deyildir ki, dinimizdə "hər kəsin dini onun ağlı qədərdir"- deyə buyurulmuşdur. Yaxud insanların əməllərinin onların ağlını nəzərdə almaqla dəyərləndirilinəcəyinə və mükafatlandırılacağına diqqət çəkilmişdir.

Belə ki, ağıllı insanın kiçik əməli, Tanrı dərgahında ikiqat qəbul olunar. Məhəmməd peyğəmbər (s) buyurur: "Bütün xeyirlər ağılla dərk edilər. Ağılı olmayanın dini də olmaz. Belə ki, ağıllı insanın yatmağı, cahil insanın oyaq qalıb, fəaliyyət göstərməyindən daha dəyərlidir."

Amma bunu da unutmaq olmaz ki, insan hər nə qədər öz ağlının qüdrətinə güvənsə də, çoxlu təcrübəsi və elmi naaliyyətləri olsa da, bütün bunlar onu xətalardan və səhvlərdən qoruyub saxlaya bilməz.

Deməli ağıl dinin göstərişlərinə də ehtiyaclıdır. Çünki bir çox məsələlər insanı yanılda bilər və bu yöndə dinin, daha doğrusu Tanrının tövsiyələrinə qulaq asmaq lazımdır.

Ona görə ki, Allah hər bir şeydən daha uca və hər məsələyə daha agahdır! O, bizim görmədiklərimizi görür, anlamadıqlarımızı olduğu kimi anlayır. Deməli din və ağıl-məntiq ikisi də paralel şəkildə hərəkət etməlidir.

İslamın zahirinə diqqət edərək, onu dərindən araşdırmayan və bu yolda ağlın-məntiqin, elmin gücündən bəhrələnməyən şəxs, dini lazımı şəkildə anlamadığı üçün onu insanlara naqis və birtərəfli formada təbliğ edəcəkdir. Belə olduqda, insanlar Allahın dinini düzgün şəkildə tanımayacaqdır. İlahi dini təbliğ edildiyi zaman təhrifə uğrayacaqdır. Bunun üçün də, hər bir ilahiyyatçının üzərində böyük məsuliyyət düşür. Qurani-kərimdə buyurulur:

"Çünki o zaman siz yalanı dilinizə gətirir, bilmədiyiniz sözü ağzınıza alır və onu yüngül bir şey sanırdınız. Halbuki bu Allah yanında çox böyük günahdır!"[2]

1. Zumər, 9.
2. Nur, 15.

Nəzərdə almaq lazımdır ki, dünyada baş verən şiddətli ixtilaflar, çəkişmələr, sosioloji problemlər, bir sıra terror aktları və qətllər, müharibələr məhz dini düzgün şəkildə insanlara çatdırılmamasının və insanların cəhalət içində "dini vəzifələrini icra etmələri" nəticəsində meydana gəlmişdir.

Burada da ilahiyyatçılar olduqca ağır məsuliyyət daşıyırlar. Dini təbliğ edən şəxs, bilmədiyi və doğru anlamadığı mətləbləri insanlara din adı altında təqdim etdiyi zaman, bütün bu acı nəticələrin səbəbkarı olur.

İlahiyyatçı şəxs bilmədiyi və geniş araşdırma aparmadığı məsələlərdə ya bu barədə yüksək təxəssüs sahibi olan şəxslərə müraciət etməli, yaxud da dərin elmi-dini tədqiqatdan sonra insanları yönləndirməlidir. Səthi məlumatlarını önə çəkərək yanlış fikirlərinin üzərində israr etməməlidir. Müqəddəs kitabımız məhz buna görə də, daim insanları diqqətli olmağa çağırır:

وَلا تَقْفُ ما لَيْسَ لَكَ بِهِ عِلْمٌ إِنَّ السَّمْعَ وَالْبَصَرَ وَالْفُؤادَ كُلُّ أُولئِكَ كانَ عَنْهُ مَسْؤُلاً

"(Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə (bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü də demə). Çünki qulaq, göz və ürək-bunların hamısı (sahibinin etdiyi əməl, dediyi söz barəsində) sorğu-sual olunacaqdır."[1]

Ruhani bilmədiyi məsələni açıq şəkildə etiraf etmək sədaqətinə malik olmalıdır. Kimsə hansısa ruhanidən dinə aid hər bir şeyi bilməsini tələb edə bilməz. Bu adi bir haldır. Necə ki, Quranda Peyğəmbərə (s) tövsiyə edilir ki, insanlara deyin:

قُلْ لا أَقُولُ لَكُمْ عِنْدي خَزائِنُ اللَّهِ وَلا أَعْلَمُ الْغَيْبَ وَلا أَقُولُ لَكُمْ إِنِّي مَلَك

"De: “Mən sizə demirəm ki, Allahın xəzinələri məndədir. Mən qeybi bilmirəm və sizə də demirəm ki, mən mələyəm."[2]

## Məntiqli söhbət

İslam dininin ən üstün cəhətlərindən biri də, arqument və məntiqə əsaslanmasıdır. Dinimiz hər bir mövzuda söhbət açarkən, onu möhkəm dəlillər və sübutlarla bəyan etmişdir. Qurani-kərimin çoxlu ayələrində müxtəlif səthlərdə və cürbəcür mövzularda məntiqi arqumentlər, elmi sübutlardan söhbət açılır. Belə ki, müqəddəs kitabımız daim insanları ağıl və məntiqə dəvət edir, özü də dəlil-sübut və məntiq əsasında hökm edir. Qurani-kərimdə bu barədə çoxsaylı ayələr mövcuddur:

قُلْ هاتُوا بُرْهانَكُمْ إِنْ كُنْتُمْ صادِقِينَ

(Ya Rəsulum!) Onlara söylə: “Əgər (bu sözü) doğru deyirsinizsə, dəlilinizi gətirin!"[3]

1. İsra, 36.
2. Ənam, 50.
3. Bəqərə, 111.

قُلْ هاتُوا بُرْهانَكُمْ هذا ذِكْرُ مَنْ مَعِي

"(Ya Rəsulum!) De: (Etdiyiniz əməlin düzgünlüyünü sübut edən) dəlilinizi gətirin. Bu mənimlə olanların (ümmətimin möhkəm) kitabı (Quran)..."[1]

Dinimiz o qədər məntiqi dəlil-sübutlara əhəmiyyət verir ki, hətta Qiyamət günü belə, Allah-təala bəndələrindən etiqadlarını və əməllərini məntiqlə əsaslandırmasını tələb edəcəkdir.

Bunun mənası bütün etiqadların və rəftarların kökünü məntiq və arqumentlər təşkil verir. Əgər belə olmasaydı, inanc və əməllərin sorğu-sualı zamanı məntiqi dəlil-sübut tələb edilməzdi.

"(Qiyamət günü) tutarlı dəlilinizi gətirin! -deyəcəyik. Onlar haqqın yalnız Allaha məxsus olduğunu biləcəklər."[2]

Qurani-kərim insanları məntiqlə haqqa dəvət edən bir peyğəmbər göndərmədən, onları cəzalandırmağın doğru olmadığını buyurur.

Başqa bir ayədə isə azğınlığa düşənlərin və nicat tapanların dəlil-sübutla qarşılaşdıqdan sonra cəza və mükafata layiq olduğunu bəyan edir. Beləliklə də, bütün nizamın məntiqi əsaslara söykənməli olduğuna diqqət çəkir.

"Biz, peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab vermərik!"[3] "Allah olacaq işi (möminlərin qələbəsini, kafirlərin məğlubiyyətini) yerinə yetirmək, həlak olanın aşkar bir möcüzə (dəlil-sübut) ilə həlak olması, sağ qalanın da aşkar bir möcüzə (dəlil-sübut) ilə sağ qalması üçün (belə etdi)."[4]

Deməli, dini təbliğlə məşğul olan ilahiyyatçı da, sözlərini məntiqlə bəyan etməli, dəlillərə əsaslanmalıdır. Necə ki, İslam peyğəmbəri (s) Allah tərəfindən söylədiyi bütün kəlamların məntiqli və dəlil-sübuta malik olduğunu buyurur:

"De: Mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəm."[5]

Dolğun və dəqiq məntiqi arqumentlərə, dəlillərə əsaslanan hər bir kəlam, onun bihudə və puç olmadığından xəbər verir. Ali hədəfə və nəticəyə malik olmasını çatdırır. İlahiyyatçı bilməlidir ki, dinimizin kifayət qədər özünü müdafiə etmək qüdrətinə sahibdir.

İslam dini haqq sözünü insanlara başa salmağa lazım olan miqdarda dəlil-sübutlara malikdir. Bunları dərindən öyrənmək və araşdırmaq lazımdır. Belə ali imtiyazlardan bixəbər olub, yaxud üz döndərib, insanlara hədə-qorxu gəlmək, hey danlamaq, onların sualları qarşısında "islamın təhlükəyə düşməsindən" qorxmaq mənasızdır.

1. Ənbiya, 24.
2. Qəsəs, 75.
3. İsra, 15.
4. Ənfal, 42.
5. Ənam, 57.

Şübhələr varsa, deməli cavabları da mövcuddur. Bəşəriyyətə təqdim olunan əbədi və kamil din bunları məntiqi əsaslarla cavablandırmağa qadirdir. Buna görə də, sual verən və dini məsələlərdə şübhəsini söyləyən şəxslərə etiraz etmək, qarşı tərəfdə dinin acizliyini etiraf etmək kimi başa düşülə bilər.

Məhz bunun üçün də, insanlara həmin məsələlərdə məntiqi açıqlama verilməsi zəruridir. Necə ki, Həzrət İmam Sadiq (ə) buyurur: "Cəhalət üç şeydə özünü göstərir: dostu dəyişməkdə, dəlil-sübut olmadan etiraz etməkdə, əhəmiyyətsiz şeylər barədə sorğu və araşdırmaqda."[1]

Demək olar ki, müqəddəs ayələrin möhkəmliyi və məntiqi əsaslarının qüdrəti o qədər əzəmətlidir ki, uca dağlar belə onun məntiqi və həqiqətinin gücü qarşısında cılız və davamsız təsvir edilmişdir.

لَوْ أَنْزَلْنا هذَا الْقُرْآنَ عَلى جَبَلٍ لَرَأَيْتَهُ خاشِعاً مُتَصَدِّعاً مِنْ خَشْيَةِ اللَّه

"(Ya Peyğəmbər!) Əgər Biz bu Quranı bir dağa nazil etsəydik, sən onun (ayələrin məntiq və dəlilinin möhkəmliyi üzündən) Allahın qorxusundan əyilib (təzim edərək) parça-parça olduğunu görərdin (halbuki ağıl və ruh sahibi olan insan onun öyüd-nəsihətlərindən ibrət almır).[2]

İslam məntiqinə əsasən, belə deyil ki, ya "Ağdır" ya "Qara", başqa rənglər dəvar bu arada. Belə deyil ki, ya "100"dür ya "Sıfır", başqa rəqəmlər də var ortalarda. Deməli, bəzi hallarda məsələlərə nisbi yanaşmaq, problemi kökündən həll edə bilər.

Deməli, yaxşı və pisin sonsuzluğa qədər dərəcələri var. Məs; bir az yaxşı, nisbətən yaxşı, yaxşı, çox yaxşı, çox-çox yaxşı, əla, əladan da əla və s. Habelə bir az pis, nisbətən pis, çox pis, faciə və s. Bu məntiq düşünülmədiyi təqdirdə, sosial və dini məsələlərdə bir çox ciddi problemlər qabağa gələcək.

Həmçinin yaxşı və pisin cəhətləri var, misal üçün: "A" yaxşıdır, yoxsa "B" ?_ sualının cavabı belə olmalıdır: "Hansı cəhətdən soruşursuz?" Bəzi cəhətdən "A" yaxşıdır, bəzi cəhətdən "B". Əlbəttə, bəzi məsələlər konkret məntiqə malikdir. Məs; "Allah var, şəriki yoxdur".

Burada maraqlı iki hadisəni, məsələyə məntiq və dəlillə yanaşmağın gücünü aydın edən bir hekayəni qeyd etmək istərdik:

**Birinci hekayə**

Qədim dövrlərdə İsfahan şəhərində bir qrup lotu tacirləri incidir, onlara sataşır, müxtəlif formalarda əziyyət edir və mallarını əllərindən alırdılar.

Orada onların hamısından daha çox əziyyət görən və zərər çəkən bir tacir var idi. Lotular daim dəvət edilmədən onun evinə gəlir və yemək tələb edib, eyş-işrətlə məşğul olurdular.

Tacir təngə gələrək dərdini o zamanın din xadimlərindən birinə açdı. Din alimi də, məsələni anlayıb tacirin evinə getdi və lotuların gəlməsini gözlədi.

---

1. Tühəful-üqul, səh. 317.
2. Həşr, 21.

Elə bu zaman lotular qapını döymədən hay-küylə tacirin evinə girdilər. Onlar din alimini gördükdə istədikləri kimi rəftar edə bilməyəcəklərini anlayıb narahat oldular və onu küsdürməyi qərara aldılar ki, oradan getsin. Lotulardan biri din aliminə dedi: Bilmirəm niyə bəzi ruhanilərin bizdən xoşu gəlmir? Bizim nəyimizi bəyənmirlər? Bizdən nə pislik görüblər?

Din alimi dedi: İnsanlar hansı yaxşı xüsusiyyətinizə görə sizi sevsinlər?

Lotu dedi: Biz heç bir zaman duz-çörək kəsdiyimiz insanlara nankorluq etmərik. Biz əsl kişi və mərd insanlarıq. Yaxşılığın qədrini bilərik.

Alim dedi: Bu çox gözəl xüsusiyyətdir, amma mən sizdə bu xüsusiyyəti görmürəm.

Lotular səs-küy salaraq bir-birinin ardınca dedilər: İsfahanda hər kimdən istəyirsənsə soruş, hər kəs bizi belə tanıyır.

Alim dedi: Siz əgər yaxşılığı qiymətləndirən və duz-çörəyə dəyər verən insanlar olsaydınız, Allah-təalanın sizə verdiyi nemətlərin və qüdrətin müqabilində Ona xəyanət etməzdiniz. Allah bəndələrini incitməzdiniz, onun bəndələrinə nəsib etdiyi nemətləri zorla əllərindən almazdınız.

Əksinə sizə əta olunan bu güc və qüvvətin əvzində Onun bəndələrinə yaxşılıq etməklə Tanrıya öz təşəkkürünüzü bildirərdiniz. Amma sizin etdiyiniz bütün bu özbaşınalıqlar, sizə bu gücü verən Allaha qarşı nankorluqdan başqa bir şey deyildir!

Lotular alimin bu məntiqli sözü qarşısında heyrətləndilər və tövbə edib çirkin işlərdən əl çəkdilər. Onlar Allahın əta etdiyi güc və qüdrəti, köməksiz insanlara yardım etmək və haqqı nahaqqın müqabilində qorumaq yolunda istifadə etdilər.

Bir gün lotuları xeyirxahlıq etdikləri vaxt görən həmin alim dedi: Bax, bu əsl (lotuluq) mərdlikdir. Əsl kişi insanların namusuna, malına-mülkünə zorla yiyələnmək istəyənlər deyil, sizin kimi nəfsani-şeytani arzularını kənara atıb, məzlum insanlara əl tutan şəxslərdir![1]

**İkinci hekayə**

Bir gün Bəhlul Danəndə bir məscidin önündən keçərkən orada xətibin moizə oxuduğunu gördü. Xətib deyirdi: Ay camaat! Cəfər ibn Məhəmmədin (ə) etiqadına görə insanlar öz əməllərində ixtiyar sahibidirlər. İstədikləri əməli yerinə yetirər və istədikləri əməllərdən çəkinə bilərlər.

Halbuki bu doğru deyildir. İnsanlar heç bir ixtiyara sahib deyildir. Onların əncam verdiyi hər bir əməl yalnız və yalnız birbaşa Allah-təala tərəfindən yerinə yetirilir.

Ay camaat! Cəfər ibn Məhəmməd (ə) Qiyamət günü şeytanın cəhənnəm odunda yanacağını iddia edir. Bir halda ki, şeytan oddan yaranıb və onu od yandıra bilməz. Eyni cinsdən olan varlıqlar necə bir-birinə zərər verə bilərlər?

Ay camaat! Cəfər ibn Məhəmməd (ə) Allah-təalanı gözlə görməyin heç bir zaman mümkün olmayacağını deyir. Halbuki, hər bir varlıq gözlə görülə bilər.

---

1. Pəndhaye pərakəndeye tarix, səh. 143-144.

Bəhlul Danəndə bunu eşidib, yerdən bir kəsək götürərək xətibin başına vurdu. Başı yarılan xətib qazinin yanına şikayətə getdi.

Qazi Bəhluldan soruşdu: Bu kişi sənə nə pislik edibdir ki, onu bu hala salmısan?

Bəhlul dedi: O, insanların öz əməllərində ixtiyar sahibi olmadıqlarını və bütün əməllərin birbaşa Allah tərəfindən icra olunduğunu iddia edir. Əgər belədirsə mənim təqsirim yoxdur. Çünki onun başını mən deyil, Allah yarıbdır.

Onun söylədiyinə görə eyni cinsdən olan əşyalar bir-birinə mənfi təsir qoya bilməz. Elə buna görə də, şeytan odda yanmaz. Çünki o özü oddan yaranıb. Mən də bu torpaq kəsəyi onun başına vurdum. Mənə elə gəldi ki, onun başı yarılmaz. Çünki insan da torpaqdan yaranıb.

Onun dediyinə əsasən, hər bir şey gözlə görülməlidir. Ondan soruş ki, başının ağrısını görə bilər, ya yox?[1]

## Zaman-məkan və dinləyici faktı

İlahiyyatçı şəxs mənəvi görüşlərini insanlara anlatmaq istədiyində, zaman, məkan, şərait, mühit və dinləyicinin ümumi mövqeyini və qavrama amilini nəzərdə almalıdır.

Məqsəd bir ilahiyyatçının xalq arasında fərdi və ictimai təbliğində diqqət etməsidir. Həmçinin, diqqət etmək lazımdır ki, kütləvi informasiya vasitələri və mediada olan dini təlim və söhbətlərdə də həmin amillərə diqqət etmək zəruridir.

İlahiyyatçı şəxs insanlara dini təbliğ etdiyində, ilk olaraq düzgün məkanı və zamanı seçməlidir. Doğrudur, paklığa və mənəviyyata çağırmağın xüsusi bir məkana və zamana ehtiyacı yoxdur. Lakin unutmaq olmaz ki, bir sıra məkanlarda və zamanlarda bəzi insanlar moizə və söhbətdən daha çox təsirlənirlər.

Bununla belə, bəzi məkanlarda və zamanlarda da ruhaninin öyüd-nəsihəti təsirsiz olar və hətta narahat edici sonluqla da nəticələnə bilər.

Dini təbliğ etmək üçün real yaxud virtual aləmdə bir sıra gözəl fürsətlər vardır. Məsələn yas məclisləri yaxud düzgün idarə olunan saytlar, virtual şəbəkələr, səhifələr bir şəxsin mənəvi təbliğində ən önəmli məkanlardan biridir.

Xüsusilə də, gündəlik namazlardan sonra, yaxud dua mərasimlərində və sair məqamlarda; həmçinin məhərrəm və ramazan aylarında, həmçinin insanların ən çox olduğu sosial şəbəkələrdə mənəvi dəyərlərin təbliğinin xüsusi təsiri vardır.

Xüsusilə də, məscidlərə insanlar daim Allahla rabitə, ibadət etmək, ilahi kəlamı eşitmək və ibrət almaq məqsədilə üz tuturlar. Bunun üçün də, məscid ruhaniyə ən böyük və ən gözəl fürsətdir ki, camaatı ilahi dini haqqında maarifləndirsin.

Həmçinin, ruhani unutmamalıdır ki, milli-mənəvi dəyərlərimizdən biri olan məscidlər, təkcə axirətimiz üçün deyil, gündəlik həyatımızda da, düzgün istifadə edildiyi zaman bir çox inkar olunmaz faydalara malikdir.

---

1. "Ənvari-Nomaniyyə", c. 2, səh. 265.

Məsumların (ə) göstərişlərinə düzgün və məsuliyyətli şəkildə yanaşılarsa, insani hisslərin aşılandığı bu müqəddəs məkanda insanlar təkcə dini təlimləri-tövsiyələrdən bəhrələnməklə kifayətlənməz, həm də bir-biriləri ilə çox rahat formada ünsiyyət yarada və qaynayıb-qarışa bilər.

Qardaşlıq prinsipi əsasında rəftar etməyin zərurətinin çatdırılmasının vacib olduğu bu müqəddəs məkanda, insanlara bir-birilərinin qeydinə qalmaq, qəm-qüssəsini aradan qaldırmaq, cəmiyyətdə bir fərd kimi qarşı tərəfin hüquqlarını riayət etmək, bir-birilərinin çətinlikləri qarşısında məsuliyyətli olmaq və sair ilahi tövsiyələr verilməlidir. Həzrət İmam Rza (ə) buyurur:

"Məscidlərdə qılınan camaat namazı insanların (Allah qorxusu ilə) bir-birilərinə kömək əli uzatmalarına, ümumi mənafelər xatirinə həmkarlıq etmələrinə, çətinlikləri birgə aradan qaldırmalarına, dindarlıqda və Allaha sitayiş etməkdə, həmçinin bir çox günahların qarşısını almaqda yardım göstərmələrinə səbəb olar".[1]

Daim ata-babalarımızın müqəddəs saydığı və and yerimiz olan məscidlər, "Allahın evi" adlandırılan bu məkankanlar, məhz ruhaninin düzgün fəaliyyəti nəticəsində, insanlara ən ali mənəvi hisslər və pak insani duyğular əks etdirməlidir. Elə bu səbəbə də, islam dinin məscidlərə olduqca böyük dəyər vermiş, insanlara məscidə getməyə təkid etmişdir.

Məsciddən uzaq qalan şəxslər bu səbəbə məzəmmət edilmişdir. Çünki məscidlər ən ali mənəvi funksiyaya malik olmuşdur. Belə ki, rəvayətdə buyurulur:

"Daima məscidə gedən insan bu səkkiz xeyirdən birinə çatar. Qurani-Kərimin möhkəm və aydin ayələrindən bəhrə aparar. Faydalı dost tapar. Yeni elmlər öyrənər. İnitzarını çəkdiyi rəhmətə qovuşar. Ona yol göstərən doğru sözlər öyrənər. Onu günahdan qoruyan oyüd-nəsihətlərə yetişər. Günah işlətməkdən utanar. Allah qorxusu günahının qarşısını alar."[2]

Hər bir ruhani də, məscidin əhəmiyyətini düzgün dəyərləndirməli və sağlam-pak mənəvi cəmiyyət tərbiyə etmək üçün ondan ən gözəl şəkildə bəhrələnməlidir.

Mənəvi səfərlər və ziyarətlər də dini dəvət üçün önəmli məqamlardandır. Ziyarətgahlara mənəvi səfərə yola düşən insanlara dini təbliğ etmək, başqa bir məkanda və şəraitdə deyə bilmədiyimiz öyüd-nəsihəti onlara söyləmək münasib zaman və məkanlardan biridir.

Qəlbində müqəddəs məkanlara sevgi-məhəbbət bəsləyən insanlar yola düşdükləri zaman, yaxud ziyarət etdikdən sonra pak könüllə, təmiz ürəklə və ən ülvi, gözəl hisslərə sahib olduqları üçün, mənəvi cəhətdən hazır olduqlarına görə öyüd-nəsihəti daha tez qəbul edəcəklər.

Yas mərasimlərində, məzarları ziyarətə gedildiyi zaman, xüsusi həssaslıqla insanları paklığa, axirət aləminin haqq olmasına, dünyanın faniliyinə və əməllərimizdəki məsuliyyətinə diqqət çəkmələri barəsində məlumatlandırmaq da faydalıdır.

---

1. Biharül-ənvar, c. 88, səh. 12.
2. Tühəful-üqul, səh. 48.

Həmçinin, ruhani öyüd-nəsihətini münasib zamanı gəlib çatmadığı təqdirdə, qarşı tərəf onu dinləməyə və sözünün qəbul etməyə hazır olmadığı halda söyləməməlidir. Çünki doğru zamanda və məkanda olmayan fəaliyyət və söylənilməyən söz olduqca mənfi təsir qoya bilər. Həzrət Əli (ə) buyurur:

"(Bağındakı) meyvəni yetişməmişdən öncə dərən şəxs, başqasının torpağında əkinçilik edən kəs kimidir."[1]

İmamın (ə) bənzətməsi nə qədər incə və gözəldir. İnsan başqasının torpağında icazəsiz əkin əkərsə, onun əksül-əməli necə olacaq? Əlbəttə ki, mənfi! O, bu əməlini heç bir vəchlə qəbul etməyəcək və etiraz edəcəkdir.

Həmçinin, başqasının torpağında icazəsiz əkin əkdiyimiz təqdirdə, onun məhsulu artıq bizim sayılmayacaqdır. Bir sözlə səyimiz və zəhmətimiz nəticəsiz olacaqdır.

İlahiyyatçı fərd dini maarifləndirməsini əncam verməkdə tələsməməlidir. Hər bir şəraitdə, hər hansı formada olursa olsun fəaliyyət etməyə çalışmamalıdır. Doğru zamanı və münasib məkanı gözləməlidir. Lazım gəldiyində susmağı və səbir etməyi bacaqmalıdır. Necə ki, Həzrət Məhəmməd (s) şərait olmadığına görə, üç il məxfi şəkildə yalnız müəyyən fərdlərə ilahi mənəviyyatı anlatdı. Yalnız üç ildən sonra aşkar formada xalqı təkallahlığa səslədi.

فَاصْدَعْ بِما تُؤْمَرُ

"(Ya Rəsulum!) Sənə əmr olunanı (Quranı) açıq-aşkar təbliğ et."[2]

Allahın elçisi (s) bununla belə, müşriklərin onun insanları paklığa və saleh əməllərə sarı çağırışına mane olduqlarını gördükdə, fəaliyyət etməsi üçün israr göstərmədi. Münaqişələrdən çəkinərək, münasib zamanı gözlədi. Qan tökülməsinin haram olduğu aylarda ictimai yerlərdə xalqı Allaha sarı dəvət etdi.[3]

Həzrət Yusif (ə) zindanda olarkən iki dəfə yuxu yozdu. İlk yuxu yozmasında zindan yoldaşlarına əvvəlcə təkallahlığı təbliğ etdi və sonra onların yuxusunu yozdu.

"Ey mənim iki zindan yoldaşım! (Sizə nə bir xeyir, nə də bir zərər verə bilən) ayrı-ayrı tanrılar daha yaxşıdır (ibadət olunmağa daha layiqdir), yoxsa bir olan qadir (qəhr sahibi) Allah?! (Allahdan) qeyri ibadət etdikləriniz sizin və atalarınızın (özünüzdən uydurub) qoyduğunuz (Allaha heç bir aidiyyəti olmayan) adlardan (bütlərdən) başqa bir şey deyildir. Allah isə onlara (ibadət edilməsinə dair) heç bir dəlil nazil etməmişdir. Hökm ancaq Allahındır. O sizə yalnız Onun Özünə ibadət etmənizi buyurmuşdur. Doğru (həqiqi) din budur, lakin insanların çoxu (bu həqiqəti) bilməz!"[4]

1. əl-Həyat, c. 1, səh. 315.
2. Hicr, 94.
3. Fürui-əbədiyyət, c. 1, səh. 326.
4. Yusif, 39-40.

İkinci yuxu yozmasında isə, əvvəlcə Misir soltanının yuxusunu yozdu, ardınca da özünün günahsız olduğuna işarə etdi. Çünki zindan yoldaşlarının ehtiyacını təmin etmək, yəni yuxularını yozmazdan qabaq onları Allaha sarı çağırmaq daha münasib idi. Zindan yoldaşlarının onun xeyirxahlığına ehtiyacları var idi. Zindanda olduqları üçün də, qəlbləri yumşalmış və öyüd-nəsihəti qəbul etməyə hazır idilər. Amma Misirin soltanı qürur içində idi. Qüdrət sahibi idi.

Həzrət Yusifə (ə) qarşı qəlbində narahatlıq var idi. Buna görə də, Yusif (ə) doğru zamanı gözlədi. Məkan fərqinə diqqət etdi. Şəraiti nəzərə aldı. Əvvəlcə onun əmrini yerinə yetirdi və yuxusunu yozdu. Sonra isə günahsız olduğunu söylədi. Əgər ilk olaraq, özünü müdafiə etsəydi, günahsızlığı haqqında mübahisə etsəydi, Misirin soltanı onun sözlərini qəbul etməyib, rədd edə bilərdi. Bununla da həm Yusif (ə) və həm də xalq zərər görmüş olardı.

Dini dəvətdə zaman, məkan və şərait məsələsi o qədər mühümdür ki, hətta ilahi möcüzələri belə zaman, məkan, şərait və mühitə uyğunlaşdırılmışdır. Hər bir peyğəmbər (s) öz məntəqəsinin tələbinə uyğun möcüzələr göstərmişdir.

Sehrin məşhur olduğu məntəqədə Həzrət Musa (ə) ona uyğun möcüzələr, təbabətin ən çox maraq topladığı, inkişaf etdiyi zamanda Həzrət İsa (ə) buna münasib möcüzələr, bəyanın, bəlağətin ən yüksək həddə inkişaf etdiyi şəraitdə, Həzrət Məhəmmədin (s) ali ilahi kəlamı Quran ilə göstərdiyi möcüzələri misal vurmaq olar.

Peyğəmbərlər (ə) də dua üçün belə məkan və zamanlara diqqət etmişlər. Həzrət Yaqub (ə) Allah dərgahında oğlanlarının günahlarının bağışlanmasını istəmək üçün xüsusi bir zamana diqqət edir.

"(Oğlanları ona:) “Ata! Bizim üçün günahlarımızın bağışlanmasını dilə. Biz, doğrudan da, günahkar olmuşuq!” dedilər. (Yəqub) dedi: “Mən Rəbbimdən sizin bağışlanmanızı diləyəcəyəm. O, həqiqətən, bağışlayandır, rəhm edəndir!"[1]

Dini təbliğ edən ilahiyyatçı, vəzifəsini əncam verdiyi müddətdə müxtəlif istedadlara, düşüncə tərzinə, anlayış və qavrama qabiliyyətinə malik insanlarla qarşılaşa bilər.

Onun dini bəyan etdiyi şəxslər fərqli-fərqli ailə mühitində böyümüş, müxtəlif şəkildə tərbiyə almış insanlardır. Buna görə də, hər bir şəxslə onun qavrama istedadına uyğun şəkildə danışmalıdır. Bu ilahi dinini təbliğ edən hər bir şəxsin diqqət etməli olduğu məsələdir. Necə ki, Allahın rəsulu (s) buyurur: "Biz peyğəmbərlər olaraq, insanlarla onların ağlı (təfəkkürü) miqdarında danışmağa məmur edilmişik."[2]

1. Yusif, 97-98.
2. Üsuli-kafi, c. 1, səh. 27.

Fəlsəfi və ağır sxolastik bəhslər ali təhsil almış və bunu anlamaq iqtidarında olan şəxslər üçündür. Adi insanlar üçün deyil. Buna görə də, təbliğ zamanı adi xalq kütləsinə sadə dəlillər, misallar, ayələr və hədislərlə zəngin söhbət etmək lazımdır. Uşaqlara dini anlatdığımız zaman, hekayələr, ibrətli məsəllər və sair kimi vasitələrdən bəhrələnmək daha məntiqə uyğundur.

İlahiyyatçı təbliğ etdiyi zaman insanların iman və ağıl dərəcələrini nəzərdə almalıdır. Allah-təala qiyamət günü bəndələrindən onların ağılları və idrakı miqdarında hesab-kitab edəcəkdir.[1]

Salman Deyləmi atasından nəql edir: İmam Sadiqə (ə) ərz etdim: Filankəs ibadətdə, dindarlıqda və fəzilətdə filan cürdür.

Buyurdu: Ağlı nə həddədir?

Dedim: Bilmirəm.

Buyurdu: Savab ağlın miqdarına görədir. Bəni İsraildən olan bir kişi adaların birində Allahın ibadətinə ömrünü vermişdi. Ada yaşıllıq, xürrəm ağaclarla dolu idi və çoxlu suları vardı. Bir mələk nazil oldu və ərz etdi: Pərvərdigara bu bəndənin ibadətinin savabını mənə əta et. Allah onun savabını mələyə verdi və mələk onu az saydı. Allah ona vəhy elədi: Onun yanında ol!

O mələk insan surətində həmin kişinin yanına gəldi. Abid ondan soruşdu: Kimsən?

Dedi: Mən bir Allahpərəst kişiyəm ki, hər yerdən sənin Allahpərəstliyini eşidib, səninlə ibadət etmək üçün gəlmişəm.

O günü onunla keçirtdi. Səhər sübh tezdən mələk ona dedi: Bura çox təmiz və ürəyəyatandır və ona görə də ibadət üçün çox yaxşı və kifayətdir.

Abid dedi: Buranın bir eybi var.

Soruşdu: Nə eybi?

Dedi: Bizim Pərvərdigarımızın heyvanı yoxdur, əgər bir ulağı olsaydı onun üçün otarardıq. Doğrudan da bu ələflər zay olurlar.

Mələk ona dedi: Pərvərdigarının ulağı yoxdur?

Dedi: Əgər olsaydı bütün bu ələflər zay olmazdı.

Allah həmin mələyə vəhy etdi: Həqiqətən ağlının miqdarı qədər ona savab verəcəyəm.[2]

Dinin ali və nümunəvi təbliğatçıları olan Həzrət Peyğəmbərimiz (s) və Məsumlarımız (ə) daim bu məsələlərə diqqət etmiş, dini yayan şəxslərə onlara riayət etməyi təkid etmişdir.

Həzrət İmam Sadiq (ə) Ömər ibn Hənzələyə müraciət edərək buyurur: «Ey Ömər, bizim şiələrimizin çiyinlərinə (daşımaq iqtidarında olmadıqları ağır) yük qoymayın və onlarla

1. Biharül-ənvar, c. 7, səh. 267.
2. Üsuli-kafi, c. 1, səh. 17.

mülayim rəftar edin. Buna görə ki, insanlar çiyinlərinə qoyulanları (ağır yükləri) daşımırlar.[1]

Əlbəttə, bəzən də qarşı tərəfimizin istedadını kəşf etməliyik, ona inanmalıyıq. Necə ki, bəzən baxırsan qupquru bir taxtadır, amma elə həmin taxta kiçik bir qığılcıma bəndir ki, alışıb yansın, alovlansın, ətrafına işıq saçsın, istilik versin... Heç bir şeyi üzünə baxıb dəyərləndirmə, onun batinini görməyə çalış, daxili gücünü kəşf et!

Tarixçilərə görə, dinləyicinin qabliyyət səviyyəsini tez ələ gətirən haqq carçılarından biri də, Qeys bin Səəd bin Übadə Ənsari Xəzrəci idi. O Həzrət Peyğəmbərin səhabələrindən və ənsarın böyüklərindən idi. O, öz qəbiləsində, ənsar və müsəlmanlar arasında böyük nüfuza malik idi. Hörmətli, əzəmətli və şücaətli bir şəxs kimi tanınırdı.

Qəbiləsində sözükeçən, mötəbər və vacib şəxsiyyət idi. Kəraməti və səxavəti dillər əzbəri idi. Peyğəmbərin (s) bəzi döyüşlərində qoşunun bayraqdarı olmuşdu. Peyğəmbər (s)-dan sonra, ilk günlərdən etibarən haqqa boyun əyib, Əli (ə)-ın "haqq xilafəti" və "xilafət haqqı" –nı tanıyaraq, onun müdafiəçisinə çevrilmişdir. Əli (ə)-ın xilafəti dövründə də onun yaxın səhabəsi və himayədarı olmuşdur.

İmam (ə) onu Misirə vali təyin etdi. O, ağlı və fərasəti nəticəsində Əli (ə)-a müxalif olanları ələ alaraq, fitnənin kökünü kəsdi. Müaviyə çox səy göstərirdi ki, Qeysi öz tərəfinə çəksin, lakin buna nail olmadı.

Bir müddətdən sonra, İmam (ə) ortaya çıxan bir sıra məsələlərə görə, Məhəmməd bin Əbi Bəkri Misirə göndərdi və Qeysi geri çağırdı.Qeys "Şurtətül-xəmis (xüsusi təyinatlı qoşun)"-un başçılarından idi.

Siffeyn döyüşündə Bəsrənin piyada qoşununun komandanlığı onun öhdəsində idi. Qeys, Siffeyn müharibəsinin ən qızğın çağında ənsarın da komandanlığını öz öhdəsinə götürdü. Onun Siffeyndə döyüşündəki misilsiz rolu çox əzəmətli idi. Öz xütbələrində Əli (ə)-ı böyük bir şəxsiyyət kimi qiymətləndirirdi. Müaviyənin əleyhinə çıxaraq, Əli (ə)-ın əmrlərinə itaət etmək və haqqı tələb etmək üçün adamları həvəsləndirirdi. Siyasi, ictimai və cərəyanları dərindən dərk edirdi.

Zmanının məsələlərini olduğu kimi dərk edən və yüksək təhlil qabiliyyətinə malik olan adlı-sanlı şəxsiyyətlərdən idi.Qeys, Siffeyn müharibəsindən sonra, Əli (ə) tərəfindən Azərbaycana rəhbər göndərildi.

O, Nəhrəvan müharibəsində iştirak etmişdi. Qoşunun sağ cinahının komandanı oldu. Əli (ə) Nəhrivan döyüşündən sonra, qoşunların şücaətli və təcrübəli sərkərdəyə ehtiyacı olduğu üçün onu yanına çağırdı. Fitnəkar və təcavüzkar düşmən qoşunu ilə müharibə etmək üçün ordunu yenidən formalaşdırdı.

---

1. Üsuli-kafi, c. 8, səh. 335.

Əli (ə)-ın şəhadətindən sonra, İmam Həsən Müctəba (ə)-a ilk beyət edən şəxs Qeys idi. O, müdrik sözləri və özünə xas təbliğ üsulu ilə daim camaatı onunla beyət etməyə çağırdı.

**Qloballaşma və təbliğ ünsürləri**

Texnologiyanın inkişafı nəticəsində dünyada baş verən qloballaşma təbii prosesdir. Belə olan halda, yalnız millətlərin müştərək dəyərləri dünyaya hakim olmalıdır. Lakin qeyri-təbii şəkildə dünyanı qloballaşdırmağa sövq verdirmək, öz mədəniyyətini, dinini və dilini xalqlara diktə etmək, insanlıq hüquqna olan ən böyük təcavüzkarlıqdır.

Amma nə yazıq ki, bu gün sionist rejimi və xristian missionerləri bu işə əzmkarlıqla cəhd etməkdədirlər. Elə məhz bu səbəbdən onların İslam ölkələrinə nüfuzunun qarşısını almaq üçün sadəcə bir yol qarşımızda durur.

O yol, İslamın həqiqi maarifini, gözəlliklərini, insana verdiyi dəyəri və bu kimi faktorları ortaya qoyaraq, dinimizin məntiq və əxlaq sahəsində bütün dinlərdən üstün olmasını, son ilahi və kamil din olduğunu açıqlamaqla mümkündür. Bu iş üçün də insanları oxumağa həvəsləndirmək lazımdır.

Doğrudan da, kitab oxumaq, ideal cəmiyyətin təməl prinsipidir. Mütaliə etmək, dinindən, irqindən, yaşından, mövqeindən, kişi və qadın olmasından aslı olmayaraq hər insanın həyatının bir parçası olmalıdır.

Elm olmayan yerdə inkişaf və tərəqqidən söhbət gedə bilməz. "Oxu" əmri bəşəriyyətə ilk ilahi mesajdır. Bu gün bir çox müsəlman ölkələrinin fundamental problemi elmə və təhsilə yetərincə əhəmiyyət göstərməmələridir. Halbuki heç bir dini və ya fəlsəfi məktəb İslam dini qədər elmə, alimə, tələbə və müəllimə dəyər verməmişdir.

İslam, alimin mürəkkəbini şəhidin qanından belə üstün saymışdır. Təbii ki, insani dəyərlərə xidmət edən və mütəxəssis şəxslər tərəfindən qələmə alınmış kitablardan söhbət gedir. Əks təqdirdə, yalnış məlumatlar sadəcə cəhalətin çoxalmasına xidmət göstərər.

Qısaca desək, dünyanın sürətlə qloballaşmağa tərəf getdiyi yolda, müdrik insanın əsas vəzifəsi müsəlman xalqının intellektual səviyyəsini yüksəltmək üçün səy göstərməsidir. Bu işdə səhlənkarlıq olarsa, yadellilər İslam ümmətini öz əcnəbi mədəniyyətləri ilə təsir altına salmağa can atacaqlar.

**Vəhdət yönlü təbliğ**

Vicdanlı ilahiyyatçının ən önəmli vəzifələrindən biri, müsəlmanları vəhdətə və birliyə dəvət etməsi, şiə-sünni qardaşlığına təkid etməsidir. Çünki İslam dini yarandığı gündən etibarən, müsəlmanları vəhdət və birliyə dəvət etmiş, ixtilaf və parçalanmalara səbəb olan amillərdən çəkindirmişdir.

Qardaşlıq və birlik tərəfdarı olan İslam, öz müqəddəs kitabı «Qurani-Kərim»də dəfələrlə vəhdətə əmr etməklə yanaşı müsəlmanların qüdrət və əzəmətini Allaha doğru gedən yolda birləşib və «Allahu-Əkbər» nidası altındakı hərəkətdə bəyan etmişdir. Buna nümunə olaraq İslamın əsl ideyasını «Ənfal» surəsinin 46-cı ayəsində görmək olar:

Allah və (Onun) Rəsuluna itaət edin və heç bir vaxt aranızda ixtilaf salmayın ki, zəif olmağınıza və qüdrətinizin aradan getməsinə səbəb olar. Səbirli olun ki, Allah səbr edənlərlədir.

Lakin təəssüflər olsun ki, tarix boyu müsəlmanlar İslamın bu göstərişlərinə diqqətsiz yanaşaraq iki böyük hissəyə parçalanmışlar. Şiə və sünnü məzhəbi adı altında olan iki müsəlman qardaş demək olar ki, heç vaxt bir-birilərini başa düşməyə çalışmamışdır.

On dörd əsrdir ki, şiə və sünnü mübarizəsi davam edir. Lakin bu mübarizə nəticəsində şiə məzhəbi sünnü və ya sünnü məzhəbi şiə olmamışdır. Bu bardə bir neçə mühüm məsələni qeyd etmək zəruridir.

1. Bəzən şiə və sünnü qardaşlarımız belə güman edirlər ki, bir-birlərinə qarşı olan hörmətsizlik və etinasızlıq onların öz məzhəblərinə sadiq qalmaqlarından xəbər verir. Lakin, bu cür əqidəyə malik olan şəxslər bilməlidirlər ki, hansısa bir məzhəbin adı altında olmaq, heç də o demək deyil ki, qarşı tərəfin haqq sözlərini də inkar etməliyik.

Əksinə, belə bir fikir tərzi yalnız qeyri-müsəlmanlara məxsusdur. Elə buna görə də, Allah-taala «Qurani-Kərim»də bəzi yəhudi və xristian tayfalarını pisləyərək buyurur:

"(Bəzi) Yəhudi və məsihi dinində olanlar bir-birilərinin əqidə və əməllərini puç sayırlar. Bir halda ki, onlar (Tövrat və İncil) kitablarını oxuyurlar."[1]

Təfsirdə deyilir: "Yəhudi və xristian alimləri, əllərində mövcud olan müqəddəs Tövrat və İncil vasitəsi ilə hansı əqidə və məsələnin doğru olduğunu aydın şəkildə göstərə bilərdilər. Amma onlar bu məsələyə biganə yanaşaraq, bir-birlərini inkar etməyə cəhd göstərirdilər."

Deməli, biz müsəlmanlar tarixin bu nöqtəsindən düzgün formada ibrət dərsi alaraq qabaqkı ümmətlərin səhvlərini təkrar etməməliyik. İnad və təəssübkeşliyi kənara qoymaqla, ağıl və düşüncə əsasında rəftar etməliyik.

Haqqı dinləmək, onu qəbul etmək hər birimizin vicdan borcudur. Haqqa gəldikdə isə «Qurani-Kərim» buyurur:

(Haqq odur ki,) Allahın ipindən möhkəm yapışıb, aranızda təfriqə salmayasınız.»[2]

1. Bəqərə surəsi, 113.
2. Ali-İmran surəsi, 103.

2. Ağıl və məntiq baxımından hər bir müsəlmanın ilkin vəzifəsi İslam çərçivəsində olan bütün əqidə və məzhəblərə hörmətlə yanaşmaqdır. Sözümüzün sübutu üçün əziz Peyğəmbərimizin(s) buyurduğu -«La ilahə illəllah (Allahdan başqa heç bir məbud yoxdur.) deməklə (cəhənnəm odundan) xilas olun!» -kəlamını misal çəkmək olar.

Bu dəyərli kəlama diqqət etdikdə, məlum olur ki, müsəlmanların nicatı onların məxsus bir məsləkə sahib olduqlarına görə deyil, məhz Allahın birliyinə olan əqidələrinə xatirdir. Deməli, bizim öhdəmizə düşən vəzifə, nicat əhlinə (yəni müsəlmanlara) qarşı hər hansı bir məzhəbdə olduqlarına baxmayaraq, ədəblə yanaşmaqdır.

Necə ki, hər iki məzhəbin qaynaqlarına əsasən, Hz. Məhəmməd peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) buyurmuşdur: "Müsəlman, müsəlmanın qardaşıdır."

Ümumuyyətlə, müsəlmanların arasında olan fikir ayrılıqlarına təbii yanaşmaq lazımdır. Ona görə ki, heç vaxt iki insan eyni şəkildə fikirləşib, eyni əqidəyə malik ola bilməz.

İnsanlar yalnız ümumi məsələlərdə ortaq fikrə gələ bilərlər. Buna nümunə olaraq bütün insanlar tərəfindən həqiqətin sevilməsini misal gətirmək olar. Adətən hər bir insan, dinindən və məzhəbindən asılı olmayaraq, həqiqəti sevir və özünü haqqın tərəfdarı kimi qələmə verir.

Əməl vaxtı gəldikdə isə yaşadıqları mühitə uyğun və düşüncələrinə əsasən həqiqətə əməl edirlər. Elə bu əməl və rəftarlar nəticəsində də, müxtəlif fikirlər meydana gəlir. Bu fikirlər cüzi və bəzən də gözə çarpan fərqlərə malik olurlar. Lakin, bununla belə onların daxilində böyük bir müştərək məna mövcuddur. O məna, həqiqəti sevmək və ona inamdır. Buna əsasən şiə və sünnü arasında olan bəzi ziddiyyətlərə təbii yanaşmaq lazımdır.

Əsas məsələ, hər iki məzhəbi dinin köklü məsələlərində (Allahın varlığı və birliyi, İlahi peyğəmbərlik, axirət aləmi və s.) həmrəy olmalarıdır. Bu isə onların arasında mövcud olan bir sıra ixtilaflara göz yummaq və birbirinə hörmət etmələri üçün kifayətdir. Axı nəyə görə Allahı, Peyğəmbəri, Quranı və qibləsi bir olan, insanları əxlaq və mənəviyyata dəvət edən iki məzhəb birbirinə qarşı soyuq münasibət göstərməlidirlər?!

Dunya müsəlmanları arasında bir çox əqidə və əhkam ixtilafları mövcuddur. Sünnü məzhəbi bir neçə dəstəyə bölünür ki, onların ən məşhuru Hənəfi, Şafei, Maliki və Hənbəli təriqətləridir. Həmçinin şiə məzhəbi də Zeydi, İsmaili və Vaqifi adlı bir sıra təriqətlərə bölünür. Əlbəttə, bu bölgülər şiə və sünnünün tanınmış etiqadları əsasındadır. Tanınmamış etiqadlarına gəldikdə isə onların sayı saysız-hesabsızdır.

Təəssüf doğuran hal budur ki, şiə-sünnü və bu iki məzhəbin adı altında olan bir çox fikirlər, müsəlmanların diqqətsizliyi nəticəsində yaranmışdır. Əgər müsəlmanlar İslam dininin müqəddəs kitabı olan Quran, İslam Peyğəmbəri (s) və onun Əhli-beytinin (ə) buyurduğu əsasında, habelə ağıl və məntiq yolu ilə düzgün formada hərəkət etsəydilər, hal-hazırda vahid bir ümmət olaraq qalardılar.

Daha təəssüf yaradan hal budur ki, bəzən müsəlmanların dinin hansısa bir sadə məsələsində ixtilafları olarkən, onu həll etmək əvəzinə kənara çəkilib özləri üçün müxtəlif məsləklər yaradırlar.

Nə isə, bunların hamısı tarixin yaralarıdır. Onun məlhəmi isə yalnız müsəlmanlar arasında olan ziddiyyətləri kənara qoyub, vahid bir ümmətə çevrilmələridir. Necə ki, Allah-taala Qurani-kərimdə buyurur:

"Siz vahid bir ümmətsiniz. Və mən sizin Rəbbinizəm. Məndən qorxun!" [1]

Əziz müsəlmanlar! Vəhdət və birlik hər bir qrupun arasında olursa-olsun qüdrət və əzəmət rəmzidir. Pərakəndəlik və ixtilaf isə, zəiflik və acizlik nişanəsidir. Elə buna görə də, İslam düşmənləri müsəlmanları zəiflətmək üçün, onların arasında ixtilaf salmağa çalışırlar. Çox təəssüflər olsun ki, xəbis düşmənlərimiz bu çirkin hədəflərinə nail ola bilmişlər. Zəif nöqtəmizi tapan düşmən, aramızda ixtilaf salmağa məşğuldur. Biz sadəlövh müsəlmanlar isə, əsl düşmənlərimizi yaddan çıxarıb, bir-birimizə düşmən oluruq. Özümüz də, belə güman edirik ki, Cənnət, yalnız biz məsləkdarlara məxsusdur. Lakin bu düzgün deyil. Elə bizim ən böyük səhvimiz də belə fikirlərdən mənşələnir.

Halbuki Allahın Cənnəti yalnız pak və təmiz insanlara məxsusdur.

Əziz müsəlman qardaşlar! Dinimizin bütövlüyü və müsəlmanların birliyi uğrunda çalışmaq, bizim önəmli vəzifəmizdir. Mərhəmətli və mehriban Allah da, bizim hamımızı bağışlayar, inşaallah. Sadəcə özümüz-özümüzə qənim olmayaq.

Əlbəttə, dediklərimiz doğru bildiyimiz əqidəmizdən və məzhbimizdən əl götürmək və ya bir addım belə geri çəkilmək mənasına deyil, sadəcə qarşı tərəfin inanclarına hörmətlə yanaşma tövsiyəli xarakter daşıyır.

Şübhəsiz, qan tökməkdən zövq alan qruplaşmış təkfirçiləri, çirkin əməllərindən əl çəkmədikləri təqdirdə, bu birlikdə heç bir zaman görmək istəməzdik.

Bu məqama da diqqətinizi çəkmək istərdik ki, Qurani-kərim hətta əhli kitabı belə müştərək inanclar əsasında, xüsusilə tövhid bayrağı altında vəhdətə doğru səsləmişdir. Aşağıdakı ayələrə diqqət yetirməklə özünüz bu qənaətə yetişəcəksiniz:

“(Ya Rəsulum!) De18: “Ey kitab əhli, sizinlə bizim aramızda (mənası) eyni olan bir kəlməyə tərəf gəlin - “Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!”.[1]

---

1. Möminun surəsi, 52.

"Və (onlarla söhbət etdikdə) belə deyin: "Biz həm özümüzə nazil olana (Qurana), həm də sizə nazil olana (Tövrata və İncilə) inanırıq. Bizim də Allahımız, sizin də Allahınız birdir".[2]

**Təbliğdə incəsənətdən faydalanmaq**

Dinin həqiqətini insanlara çatdırmaq, onları maarifləndirmək yalnız söhbət, movizə yolu ilə deyil, incəsənət və sənətkarlıq yolu ilə də olmalıdır. Çünki insan fitrəti gözəlliyi və cazibədarlığı sevir.

İncəsənət də, gözəllik və cazibədarlıqla dolu bir zərif sənətdir. Bəzən haqqında kitablar yazılmış, uzun-uzadı söhbətlər edilmiş bir məsələ, incəsənətin möcüzəsi ilə sadə bir rəsm əsərində, gözəl formada təsvir edildiyi üçün ən üstün nəticəni əldə edir.

Burada incəsənət dedikdə naqqaşlıq, dizaynerlik, film, təsirli rəsm və fotolar və bu kimi incə faktorlar nəzərdə tutulur. Və bu halların virutal aləmdə daha asan yolla hazırlanmasının və daha təsirli üslublar olduğunun düşüncəsindəyik. Bugün belə bir vasitələrdən pak mənəviyyatı və düzgün düşüncələri yaymaq və anlatmaq üçün istifadə etmək zəruridir.

İncəsənətdən pak yolda bəhrələnmək, dinimiz tərəfindən də təsdiq edilmişdir. Çünki bu həm gözəllik, həm bacarıq və həm də daha aydın, rahat şəkildə insanları paklığa çəkmək üçün bir vasitədir. Qurani-kərimdə Həzrət İbrahim (ə) ölülərin dirilməsinə tam yəqin tapmaq üçün Allahdan bunu gözləri ilə görmək istədiyini xahiş etdikdə, Allah-təala bunu sanki gerçək film şəklində ona nümayiş etdirmişdi:

وَإِذْ قالَ إِبْراهيمُ رَبِّ أَرِني كَيْفَ تُحْيِ الْمَوْتى قالَ أَوَلَمْ تُؤْمِنْ قالَ بَلى وَلكِنْ لِيَطْمَئِنَّ قَلْبي

"(Ya Rəsulum!) Xatırla ki, İbrahim: "Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər!" -dedikdə (Allah): "Məgər (ölüləri diriltməyimə) inanmırsan?" -buyurmuşdu. (İbrahim:) "Bəli, inanıram, lakin ürəyim xatircəm (arxayın) olmaq üçün (soruşdum)", -deyə cavab vermişdi. (Bu zaman Allah ona) buyurmuşdu: "Dörd cür (cins) quş götürüb (səhv salmamaq üçün) onlara diqqətlə bax, (onları parçalayaraq bir-birinə qatandan) sonra hər dağın başına onlardan bir parça at, sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!"[3]

Burada Həzrət Məhəmməd peyğəmbərin (s) ağacı silkələyərək, yarpaqlarını tökməsi və səhabələrinə "namaz da beləcə günahları tökür" -deyə nümayiş etdirməsini misal vurmaq olar.[4] Həmçinin, Allahın rəsulunun (s) səhabələrinə ağacsız bir düz səhrada çor-çöp toplamağı göstəriş verməsi, böyük bir miqdar çör-çöp toplandıqdan sonra, "baxın kiçik günahlar da beləcə yığılaraq çoxalır" -deyə göstərməsini də qeyd etmək mümkündür.[5]

---

1. Ali-İmran, 64.
2. Ənkəbut, 46.
3. Bəqərə, 260.
4. Camei-əhadisiş-şiə, c. 4, səh 17-18.
5. Dastani-rastan, c. 1, səh. 204.

Rəvayətə görə, Həzrət Peyğəmbərin (s) bir savadsız qoca qadının cəhrə ilə yundan sap hazırladığını gördü. Ona yaxınlaşıb soruşdu: Sən Allahın varlığını necə dərk edərsən? Qoca qadın əlini cəhrədən çəkdi, bu zaman cəhrə dayandı. Ardınca Peyğəmbərə (s) dedi:

Ey Allahın elçisi, bu kiçik bir cəhrədir. mənim vasitəmlə hərəkət edir. Mən əlimi onun dəstəyindən çəkən kimi dayandı. Bu kiçik cəhrəni mən hərəkət etdirirəm. Bəs necə ola bilər ki, belə böyük əzəmətə malik kainat öz-özünə hərəkət etsin? Mən yəqin bilirəm ki, onu yaradan vardır. Həmin yaradan Allahdır.

Peyğəmbər (s) bu zaman səhabələrinə buyurdu: Bu qoca qarıdan dini (anlayışı) öyrənin.

Gördüyünüz kimi hünər dolu gözəl bir nümayiş, qoca və savadsız qarının vasitəsilə belə, nə qədər düşündürücü və dolğundur.

Ümumiyyətlə, incəsənət istər teatr olsun istər kino, istər şeir olsun istər musiqi, istər rəssamlıq olsun istər memarlıq, bütün bu sadalananlar bir millətin mədəni inkişafı üçün qaçılmaz faktordur. Lakin digər sahələrdə olduğu kimi, incəsənətin də təməl prinsipində ilahi və əxlaqi dəyərlər hökm sürməlidir.

**Virtual aləmdə mənəvi çağırışın zəruriliyinə diqqət:**

1. Günün tələbidir; bu gün dünyada 1 milyarda yaxın insan virtual aləmdə aktivdir və bu rəqəm getdikcə artmaqdadır.
2. Təbliğ edən şəxsin, ifadə etdiyi mövzu haqda geniş və dəqiq məlumatı olmalıdır.

Virtual aləmdə təbliğin metodları düzgün şəkildə öyrənilməli, bu müqəddəs işə mahirliklə addım atılmalıdır.

4. Hər bir sahədə əmniyyət sisteminə diqqət olunmalıdır!
5. Rabitə və psixologiya elminə, nisbi də olsa yiyələnmək şərtdir.
6. Yazı və danışıqlarda təmkinli olmaq, əxlaq və etik normaları gözləmək vacibdir.
7. Zəruri məsələrə daha artıq yer verilməli, lakin yeknəsəqlikdən uzaq olmaq üçün, bəzən dəyişik mövzulara da toxunmaq lazımdır.
8. Arqument və dəlillər möhkəm və tutarlı olmalıdır.
9. Təbliğ qısa və konkret, eyni zamanda şəffaf və aydın olmalıdır.
10. Təsir qüvvəsini artırmaq üçün, şəkil və təsvirlərdən istifadə etmək lazımdır.
11. Nisbi də olsa, izləyicilərin zövq, xarakter və həssalıqlarını tanımaq, təbliğ zamanı həmin faktorlara diqqət yetirmək lazımdır.
12. Ümumiyyətlə, insanların intellektual maraqlarını artırmaq yolunda cəhd etmək və xalqın hərtərəfli inkişafı üçün səy göstərmək vacibdir. Virtual aləm, bu iş üçün çox əlverişlidir.